Ədalət .- 2025.- 25 aprel(№15).- S.2.

# Strateji tərəfdaşlıqda yeni səhifə Azərbaycan - Çin

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Çin Xalq Respublikasına dövlət səfərinə gedib. Səfər çərçivəsində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Çin Xalq Respublikasının Sədri Si Cinpinin iştirakı ilə Azərbaycan-Çin sənədlərinin imzalanması mərasimi olub. Səfər çərçivəsində dövlət rəhbərlərinin geniş tərkibdə görüşü olub, Azərbaycan Prezidentinin şərəfinə rəsmi ziyafət verilib.**

**Azərbaycan Milli Məclisinin deputatları ölkə rəhbərinin Çin Xalq Reespublikasına səfəri və iki ölkə arasındakı imzalanmış sənədlər barədə fikirlərini bölüşüblər.**

### *Azərbaycan-Çin əməkdaşlıq əlaqələri çox böyük əhəmiyyət kəsb edir*



**Deputat Kamaləddin Qafarov** isə bildirib ki, Bu gün Azərbaycanın əməkdaşlıq əlaqələrinin dinamik şəkildə inkişaf etdiyi ölkələrdən biri də Çindir. Məlum olduğu kimi, 2023-cü il iyulun 3-də "Azərbaycan Respublikası ilə Çin Xalq Respublikası arasında strateji tərəfdaşlığın qurulması haqqında Birgə Bəyannamə" qəbul olunub."

Deputatın sözlərinə görə, ölkələrimiz arasında 1992-ci il aprelin 2-də diplomatik münasibətlər qurulduqdan dərhal sonra ikitərəfli əməkdaşlıq əlaqələri sürətlə inkişaf etməyə başlayıb və indiyə kimi kifayət qədər səmərəli nəticələr əldə edilib: " Birgə Bəyannamə, qeyd etdiyimiz kimi, ötən ilin iyulunda Astanada keçirilən Şanxay Əməkdaşlıq Təşkilatının 24-cü sammitində Azərbaycan Prezidenti cənab İlham Əliyev və ÇXR-in Sədri Si Cinpin arasında baş tutmuş təkbətək görüşün gedişində imzalanmışdır. Həmin görüş zamanı iki ölkənin rəhbəri əməkdaşlığı gələcəkdə də genişləndirmək, beynəlxalq məsələlərdə qarşılıqlı fəaliyyəti möhkəmləndirmək, ölkələrimizin ümumi maraqlarını birlikdə müdafiə etmək, həmçinin regional və qlobal sülh, sabitlik və inkişaf fəaliyyətini birgə təşviq etmək barədə razılığa gəlmişdilər. Bu gün Avrasiya regionunda cərəyan edən hadisələr bir daha təsdiq edir ki, Azərbaycan-Çin əməkdaşlıq əlaqələri istər qlobal sülh və sabitliyin qorunması baxımından, istərsə də Şərq-Qərb iqtisadi-ticari əlaqələrinin daha da genişləndirilməsi baxımından çox böyük əhəmiyyət kəsb edir. Bütün bu məqamlar cənab Prezident İlham Əliyevin aprelin 21-də Çinin Sinxua agentliyinə verdiyi müsahibədə öz əksini tapmışdır."

Kamaləddin Qafarov Azərbaycan ilə Çin arasında strateji tərəfdaşlığın qarşılıqlı hörmət, bərabərlik, etimad, qarşılıqlı dəstək, qarşılıqlı fayda və əməkdaşlıq kimi ikitərəfli münasibətlərin əsas prinsipləri üzərində qurulduğunu və ölkələrimizin bir-birinin suverenliyinə və ərazi bütövlüyünə böyük hörmətlə yanaşan, müstəqil xarici siyasət yürüdən etibarlı tərəfdaşlar olduğunu xüsusi vurğulayıb: "Sözsüz ki, "Azərbaycan Respublikası ilə Çin Xalq Respublikası arasında strateji tərəfdaşlığın qurulması haqqında Birgə Bəyannamə" iki ölkə arasında münasibətlərin yeni səhifəsini açmış oldu. Onu da qeyd etmək lazımdır ki, məhz Azərbaycan ÇXR-in Sədri tərəfindən irəli sürülmüş "Kəmər və yol" təşəbbüsünü dəstəkləyən ilk ölkələrdən biridir. Möhtərəm dövlət başçımızın qeyd etdiyi kimi, Azərbaycan bu layihənin reallaşmasına istər öz ərazisində, istərsə də onun hüdudlarından kənarda Çindən sonra daha çox investisiyalar qoyan ikinci ölkədir. Təsadüfi deyil ki, hələ 2019-cu ilin aprelində Çində keçirilən 2-ci "Kəmər və yol" Forumunda etdiyi çıxışında cənab Prezident İlham Əliyev bildirmişdi ki, bu layihə təkcə nəqliyyat əlaqəsini təmin etmir, həmçinin müxtəlif ölkələr arasında əlaqələri gücləndirir, dialoq və əməkdaşlığın möhkəmlənməsinə xidmət edir və beynəlxalq ticarət üçün yeni imkanlar yaradır. Bu gün Bakı-Tbilisi-Qars dəmir yolu, "Şimal-Cənub" Beynəlxalq Nəqliyyat Dəhlizi, Orta Dəhliz kimi tanınan Trans-Xəzər Beynəlxalq Nəqliyyat Marşrutu və əlbəttə ki, Bakı Beynəlxalq Dəniz Ticarət Limanı "Kəmər və yol" təşəbbüsü çərçivəsində iqtisadi və nəqliyyat imkanlarının reallaşdırılması üçün yeni perspektivlər açır" .

### *"Birgə Bəyannamə" dövlətlərarası əlaqələrin yüksək səviyyədə olduğunu sübut edir*

"Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Çinin Sinxua agentliyinə verdiyi məxsusi müsahibə iki ölkə arasında münasibətlərin yüksələn xətt üzrə inkişaf etdiyini nümayiş etdirir". Bu fikirlərin müəllifi isə **deputat Heydər Əsədovdur.** Millət vəkili bildirib ki, dövlət başçısının ifadə etdiyi fikirlər qarşılıqlı hörmət, bərabərhüquqlu tərəfdaşlıq və strateji maraqlar üzərində qurulan Azərbaycan-Çin əməkdaşlığının region və dünya üçün əhəmiyyətli bir modelə çevrildiyini bir daha göstərir:



"Prezident İlham Əliyevin Çin Xalq Respublikasının Sədri Si Cinpinlə keçirdiyi ikitərəfli görüşlər, o cümlədən 2024-cü il iyulun 3-də Astana şəhərində Şanxay Əməkdaşlıq Təşkilatının sammiti çərçivəsində imzalanan "Azərbaycan Respublikası ilə Çin Xalq Respublikası arasında strateji tərəfdaşlığın qurulması haqqında Birgə Bəyannamə" dövlətlərarası əlaqələrin yüksək səviyyədə olduğunu sübut edir. Həmin sənəddə əksini tapmış suverenliyin, ərazi bütövlüyünün qarşılıqlı tanınması və dəstəklənməsi, siyasi dialoqun davamlılığı, beynəlxalq təşəbbüslərdə birgə fəaliyyət və qarşılıqlı fayda prinsipi xüsusi əhəmiyyət kəsb edir. Azərbaycan Prezidentinin vurğuladığı kimi: "Bəyannamədə xüsusi olaraq qeyd edildi ki, 1992-ci il aprelin 2-də diplomatik münasibətlərin qurulduğu andan sonra ikitərəfli əməkdaşlığımız bir çox səmərəli nəticə verib. Bununla yanaşı, biz razılaşdıq ki, əməkdaşlığı gələcəkdə də genişləndirək, beynəlxalq məsələlərdə qarşılıqlı fəaliyyəti möhkəmləndirək, iki ölkənin ümumi maraqlarını birlikdə müdafiə edək, həmçinin regional və qlobal sülh, sabitlik və inkişaf fəaliyyətini birgə təşviq edək".

Azərbaycan və Çin arasında iqtisadi əməkdaşlıq son illərdə dinamik inkişaf edir. Neft-kimya sənayesi, alternativ enerji, rəqəmsal texnologiyalar və kənd təsərrüfatı sahələrində Çin şirkətlərinin Azərbaycan iqtisadiyyatına marağı artır. Çin şirkətləri Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında aparılan bərpa və yenidənqurma proseslərində yaxından iştirak etməkdə maraqlıdır. Eyni zamanda, Çin texnologiyalarının, xüsusilə "ağıllı şəhər" və "yaşıl enerji" layihələrinin ölkəmizin müasir inkişaf modelinə inteqrasiyası əməkdaşlığın yeni mərhələsini müəyyən edir. Prezident İlham Əliyev müsahibəsində qeyd edib ki, bu gün Azərbaycanda Çin kapitalı ilə 375 şirkət qeydə alınıb, onlardan 298-i ölkəmizdə aktiv fəaliyyət göstərir. Dövlətimizin başçısı vurğulayıb ki, hazırda Azərbaycanla Çin arasında qeyri-neft sektorunda, xüsusən yüksək texnologiyalara və innovasiyalara, alternativ və bərpaolunan enerjikaya yönəlmiş birbaşa investisiyaların cəlb olunması sahəsində birgə əməkdaşlığın perspektivlərinə dair danışıqlar aparılır.

Azərbaycanın unikal coğrafi mövqeyi və regional tranzit imkanları Çinlə əməkdaşlığın daha bir mühüm aspektidir. Ölkəmizin əlverişli logistika imkanları Çin şirkətləri üçün səmərəli, təhlükəsiz və sürətli alternativ yaradır. Şimal-Cənub və Şərq-Qərb nəqliyyat dəhlizlərinin kəsişməsində yerləşən Azərbaycan öz sabitliyi və infrastruktur imkanları ilə regional əməkdaşlığın mühüm həlqəsinə çevrilib. Prezident İlham Əliyevin qeyd etdiyi kimi, bu gün Bakı-Tbilisi-Qars dəmir yolu, "Şimal-Cənub" Beynəlxalq Nəqliyyat Dəhlizi və Trans-Xəzər Beynəlxalq Nəqliyyat Marşrutu (Orta Dəhliz), həmçinin Xəzərdə ən iri limanlardan biri olan Bakı Beynəlxalq Dəniz Ticarət Limanı "Kəmər və yol" təşəbbüsü çərçivəsində iqtisadi və nəqliyyat imkanlarının reallaşdırılması üçün yeni perspektivlər açır.

İki ölkə beynəlxalq münasibətlər sistemində çoxqütblü və ədalətli düzənin tərəfdarıdır. Dövlətlərin daxili işlərinə qarışmamaq və beynəlxalq hüquqa hörmət başlıca prinsiplər kimi müəyyən olunub. Azərbaycan Çin kimi Qlobal Cənubun bir hissəsi olaraq inkişaf etməkdə olan ölkələrin hüquqlarını müdafiə edir, onların qlobal sistemdə daha fəal iştirakını təşviq edir. Ölkəmiz 2019-2023-cü illərdə BMT-dən sonra ikinci beynəlxalq təşkilat olan Qoşulmama Hərəkatına sədrliyi dövründə bu mövqeləri ardıcıl şəkildə müdafiə edib.

Beləliklə, Prezident İlham Əliyevin Sinxua agentliyinə verdiyi müsahibə Azərbaycan-Çin münasibətlərinin gələcək inkişaf istiqamətlərinə aydınlıq gətirir. Əminliklə söyləmək olar ki, iki ölkə arasında strateji tərəfdaşlıq münasibətləri daha da möhkəmlənəcək və qlobal miqyasda daha böyük təsir gücünə malik olacaq".

### *"Bir kəmər, bir yol" təşəbbüsünə Azərbaycanın verdiyi dəstək regional əməkdaşlığa töhfədir*

**Deputat Məşhur Məmmədov** isə bildirib ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Çin Xalq Respublikasının aparıcı media orqanı olan Sinxua agentliyinə verdiyi geniş müsahibə bu baxımdan xüsusi əhəmiyyət daşıyır. Bu müsahibə yalnız ikitərəfli münasibətlərin cari vəziyyətini deyil, həm də gələcək strateji əməkdaşlıq üçün açılan yeni üfüqləri nümayiş etdirir. Prezident İlham Əliyev müsahibəsində Azərbaycan və Çin arasında formalaşmış siyasi dialoqun yüksək səviyyəsini, iqtisadi əməkdaşlığın genişlənməkdə olan dinamikasını və ümumilikdə ikitərəfli əlaqələrin strateji xarakter daşıdığını vurğuladı. Xüsusilə "Bir kəmər, bir yol" təşəbbüsünə Azərbaycanın verdiyi dəstək və bu təşəbbüs çərçivəsində həyata keçirilən layihələrin regional əməkdaşlığa töhfəsi müsahibədə əsas vurğu nöqtələrindən biri idi.



Deputatın sözlərinə görə, Azərbaycanın tranzit-logistika imkanlarının artırılması, Zəngəzur dəhlizi kimi qlobal əhəmiyyətli layihələrin perspektivləri və ölkəmizin Çinin Avrasiya məkanına çıxışında oynadığı körpü rolu ölkə rəhbərinin çıxışında əhatəli şəkildə izah olundu: "Bu, təkcə iqtisadi fayda baxımından deyil, həm də siyasi etimadın göstəricisi kimi qiymətləndirilə bilər. Qloballaşan dünyada regional təhlükəsizlik və çoxtərəfli əməkdaşlıq kontekstində Azərbaycan-Çin tərəfdaşlığı mühüm strateji əhəmiyyətə malikdir.

Prezident İlham Əliyevin müsahibəsində toxunduğu əsas məsələlərdən biri də regional sabitlik və təhlükəsizlik idi. Azərbaycanın beynəlxalq hüquq prinsiplərinə əsaslanan siyasəti, xüsusilə ərazi bütövlüyünün bərpasından sonra regionda sülh və əməkdaşlıq gündəliyinin təşviqi, Çin kimi böyük dövlətlər tərəfindən təqdir olunur. Prezident açıq şəkildə bildirdi ki, Azərbaycan bölgədə sabitliyin əsas təminatçılarından biridir və bu missiyanı uğurla davam etdirir..

Prezident İlham Əliyevin Sinxua agentliyinə verdiyi müsahibə Azərbaycan-Çin münasibətlərinin strateji xarakterini bir daha nümayiş etdirdi. Bu müsahibə iki ölkə arasında qarşılıqlı etimada, bərabərhüquqlu tərəfdaşlığa və ortaq maraqlara əsaslanan əlaqələrin möhkəm təməl üzərində inkişaf etdiyini təsdiqlədi. Azərbaycanın təşəbbüskarı olduğu enerji, nəqliyyat və logistika layihələrinin Çin tərəfindən dəstəklənməsi, qarşılıqlı investisiyaların təşviqi və siyasi səviyyədə aparılan dialoq, bu münasibətlərin gələcək perspektivlərinin nə qədər geniş olduğunu göstərir. Azərbaycan-Çin əlaqələri təkcə ikitərəfli çərçivə ilə məhdudlaşmır - bu əməkdaşlıq eyni zamanda BMT, ŞƏT, Asiyada Qarşılıqlı Fəaliyyət və Etimad Tədbirləri üzrə Müşavirə kimi beynəlxalq platformalarda da davam etdirilir. Prezident İlham Əliyev Azərbaycanın Çinlə çoxşaxəli əməkdaşlığın tərəfdarı olduğunu və bu istiqamətdə siyasi iradənin tam mövcudluğunu diqqətə çatdırdı

Azərbaycan Prezidentinin müsahibəsi həm də ölkəmizin xarici siyasətində yeni geosiyasi reallıqlara uyğun çevik və praqmatik yanaşmanı əks etdirir. Çin kimi qlobal gücün diqqətində olan Azərbaycan, Cənubi Qafqazda sabitliyin, təhlükəsizliyin və əməkdaşlığın əsas dayağı kimi çıxış edir. Bu isə onu göstərir ki, Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan yalnız regional deyil, qlobal səviyyədə də mühüm və etibarlı tərəfdaş kimi çıxış etməkdədir".

**Nicat Novruzoğlu**
**Parlament müxbiri**